**Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası ilə Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya”nın (əlavələrlə) 1/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi (bundan sonra “Tərəflər” adlandırılacaq),

“Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (bundan sonra “DHDNÇ” adlandırılacaq) 1978-ci il tarixli Beynəlxalq Konvensiya”nın (əlavələrlə) I/10-cu qaydasına əsasən, sertifikatların (diplomların) tanınması sahəsində qarşılıqlı faydalı əməkdaşlıq qurmaq məqsədi ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Məqsəd**

Bu Anlaşma Memorandumu DHDNÇ Konvensiyasının icrası məqsədilə Tərəflər arasında dəniz nəqliyyatı sahəsində təhsil və təlimin, habelə dənizçilərə verilən ixtisas şəhadətnamələrinin qarşılıqlı tanınması məqsədini daşıyır.

Maddə 2
**Tətbiq dairəsi**

Bu Anlaşma Memorandumu DHDNÇ Konvensiyasının müvafiq müddəalarına uyğun olaraq, hər hansı bir Tərəfin verdiyi ixtisas şəhadətnaməsinə malik olan və digər Tərəfin dövlət bayrağı altında üzən gəmidə xidmət göstərən dənizçilərə şamil olunur.

Maddə 3
**Əməkdaşlıq sahələri**

Tərəflər DHDNÇ Konvensiyasının I/10-cu qaydasının müddəalarına uyğun olaraq digər Tərəfin verdiyi dəniz nəqliyyatı sahəsində təhsil və təlimin, dənizçilərə verilən ixtisas şəhadətnamələrinin, təsdiqnamələrin, təsdiq edilmiş təlim sənədlərinin və dənizçilərin tibbi şəhadətnamələrinin (bundan sonra “sertifikatlar” adlandırılacaq) qarşılıqlı tanınması, eyni zamanda təlim, sertifikatlaşdırma və dənizçilərin idarə edilməsi üzrə əməkdaşlıq edəcəklər.

Maddə 4
**Tərəflər arasında əlaqələr**

4.1. Bu Anlaşma Memorandumunun həyata keçirilməsi məqsədi ilə yazışmalar aşağıdakı əlaqə nömrələrinə və ünvanlara göndərilir:

4.1.1. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının əlaqə məlumatları:
AZ 1003, Bakı şəh., Xanlar küç. 2B
Telefon: (+994 12) 497-44-05
Faks: (+994 12) 497-44-06
E-mail: info@ardda.gov.az

4.1.2. Koreya Respublikası Okeanlar və Balıqçılıq Nazirliyinin əlaqə məlumatları:
Hökumət binası kompleksi 5, № 94, Dasom 2-Ro, Sejong xüsusi özünüidarə şəhəri, Koreya
Telefon: +82442005741
Faks: +82442005739
E-mail: mofl@korea.kr

4.2. Yuxarıda qeyd olunmuş ünvanlarda, əlaqə nömrələrində və ya elektron poçtlarda hər hansı dəyişiklik olacağı təqdirdə, Tərəflər bir-birlərini bu barədə dərhal yazılı şəkildə xəbərdar edəcəklər.

Maddə 5
**Dənizçilərin hazırlanması, təlimi və qiymətləndirilməsi**

Tərəflər milli qanunvericilikləri çərçivəsində DHDNÇ Konvensiyasının tələblərinə uyğun olaraq, dənizçilərin hazırlanması, təlimi və qiymətləndirilməsinin DHDNÇ Məcəlləsinin A-1/6 bölməsinə əsasən hər bir növ və səviyyə üzrə təşkil olunmasını və onlara nəzarət edilməsini təmin edirlər.

Maddə 6
**Etibarlılıq və autentikliyin yoxlanılması**

Tərəflər sertifikatların etibarlılığını və autentikliyini faksimil və ya elektron poçtla digər Tərəfə birbaşa müraciət olunmaqla yoxlayır. Sorğuda sertifikat sahibinin şəxsi məlumatları (adı, soyadı, doğum tarixi) və sertifikatla bağlı məlumatlar (sertifikatın tipi, seriya nömrəsi, verilmə yeri və tarixi) öz əksini tapmalıdır. Sertifikat verən Tərəf sorğunu qəbul etdikdən sonra yeddi (7) iş günü müddətində faksimil və ya elektron poçtla sorğunu cavablandırmalıdır.

Maddə 7
**Təlim sahələrinə səfər və prosedurlarla tanışlıq**

1. Tərəflərin nümayəndələri DHDNÇ Konvensiyasının 1/10 qaydasının müddəalarına uyğun olaraq və sertifikat verən Tərəfin razılığı ilə, aşağıda göstərilənlərlə bağlı sertifikatların verilməsi ilə əlaqədar təlim sahələri, eyni zamanda sertifikat verən Tərəfin qəbul etdiyi prosedur və qaydalarla tanış olmaq məqsədi ilə bir-birlərinin ölkələrinə səfərlər edə bilərlər:

a. DHDNÇ Konvensiyasının həyata keçirilməsi, həmçinin dənizçilik sahəsində təhsil və təlim sahələri üzrə hər bir Tərəfin imkanları;

b. ixtisas sertifikatlarının verilməsi ilə bağlı standartlar;

c. sertifikatların verilməsi, təsdiq edilməsi, etibarlılıq müddətinin uzadılması və sertifikatın ləvğ edilməsi;

d. uçot aparılması;

e. tibbi uyğunluq standartları;

f. yoxlama üçün göndərilən sorğuların əlaqələndirilməsi və cavablandırılması prosesi.

2. Səfəri həyata keçirən Tərəf bu Anlaşma Memorandumunun 7-ci maddəsinin 1-ci bəndinin müddəalarına əsasən həyata keçirdiyi qiymətləndirmənin nəticələri barədə məlumatı səfəri bitirdikdən sonra üç (3) ay müddətində sertifikatı verən Tərəfə təqdim edir.

Maddə 8
**Sertifikatların verilməsi və təlimlərin təşkili ilə bağlı dəyişikliklərə dair bildiriş**

Tərəf DHDNÇ Konvensiyasına uyğun olaraq sertifikatın verilməsi və təlimlərin təşkili ilə bağlı hər hansı ciddi dəyişiklik edərsə, bu dəyişikliklərin tətbiqindən sonra altmış (60) gün müddətində bu barədə digər Tərəfi məlumatlandırır.

Maddə 9
**Tanınmaya dair təsdiqnamələrin etibarlılıq müddətinin dayandırılması, ləğv edilməsi və geri alınması**

Tərəflərdən biri, DHDNÇ Konvensiyasının 1/2 qaydasının müddəalarına uyğun olaraq, sertifikatlaşdırılmış dənizçi intizam məsuliyyətinə cəlb olunduqda və ya milli qanunvericiliyində müəyyən olunmuş digər hallarda onun sertifikatı üzrə tanınmaya dair təsdiqnamələrin verilməsindən imtina edə və ya tanınmaya dair təsdiqnamələrin etibarlılıq müddətini dayandıra, ləğv edə və geri ala bilər. Sertifikat verən Tərəf yeddi (7) gün ərzində faksimillə və ya elektron poçt vasitəsilə məlumatlandırılacaqdır.

Maddə 10
**Fikir ayrılıqlarının həlli**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə əlaqədar meydana çıxan hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11
**Əlavə və dəyişikliklər**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə də dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan və ayrıca protokollar formasında rəsmiləşdirilərək, Anlaşma Memorandumunun 12-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 12
**Qüvvəyəminmə və müddət**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat vermədikdə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumunun ləvğ edilməsi, belə ləvğetmədən əvvəl ona əsasən başlanılmış layihələrin və ya proqramların həyata keçirilməsinə təsir göstərmir.

Seul şəhərində 2016-cı il 17 mart tarixində, hər biri Azərbaycan, Koreya və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının<br>Dövlət Dəniz Administrasiyası<br>adından<br>Qüdrət QURBANOV,<br>Administrasiyanın rəisi** | **Koreya Respublikasının<br>Okeanlar və Balıqçılıq Nazirliyi<br>adından<br>Yoon HAG BAE,<br>nazir müavini** |